# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 01 may tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2014-cü il 31 mart tarixli 91 nömrəli Qərarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin səkkizinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 01 may tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin Siyahısı”nın 7-8-ci və 10-cu bəndləri ləğv edilsin, 9-cu bənddə “Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin inzibati binası” sözləri “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin inzibati binası” sözləri ilə əvəz edilsin.
2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Cabbar Musayev**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 29 ” “ aprel ” 2026-cı il

№ 18